Səs.- 2026.- 3 mart, №17.- S.4.

# Günəşə, oda inam - Od çərşənbəsi

Xalqımız boz ayda qeyd edilən ikinci çərşənbəni - Od çərşənbəsini qeyd edir. Artıq bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir. Çərşənbələr Novruz bayramının əvəzolunmaz atributlarındandır. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Hər Çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilir. Novruz bayramına qədər dörd çərşənbə geniş şəkildə qeyd edilir ki, bunlar da su çərşənbəsi, od çərşənbəsi, yel çərşənbəsi, torpaq çərşənbəsidir. Bu çərşənbələr insanın 4 ünsürdən yaradılması ilə bağlı dini-mifik görüşləri simvollaşdırır. İlin axır çərşənbələrindən ikincisi xalq arasında Xəbərçi çərşənbə, Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar. İndi şər qarışanda hər həyətdə, yaxud məhəllədə tonqallar yandırılır və tonqal başına toplananların hamısı növbə ilə 3 dəfə alovun üstündən tullanırlar. Odla bağlı xeyli atalar sözü yaranıb: ”Od imandır”, ”Od düşdüyü yeri yandırar” və s. İnanclara görə, ocağa yaxınlaşanda salam verərlər, od hisli olarsa, uzaqdan qonaq gələcəyinə işarədir. Əgər ocaq yananda səslənirsə, deməli, kimsə səndən danışır.




Digər çərşənbələrdə olduğu kimi, Od çərşənbəsində də qazanlar qaynamalı, ocağın üstü boş olmamalıdır. Bu çərşənbədə odun, tonqalın yandırılması həmin ilin isti, bərəkətli keçməsinə işarədir. Hələ qədim dövrlərdən insanlar odu qoruyub, oda hörmət ediblər. Belə bir inanc da var ki, Od Çərşənbəsi günü, gün doğanda dünyaya gələn uşaq göyçək və pəhləvan olar. Oda sevgi və inam insanlarda o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içiblər. Alqış və qarğışlarda belə, Odu köməyə çağırıblar. Məsələn, ”Od haqqı”, ”Oda düşəsən,” ”Ocağın odlu olsun”, ”Ocağın qazan görməsin” və s.

Qədim türk mifologiyasının özündə odla bağlı müxtəlif motivlər mövcud olmuşdur və Novruzdakı odla bağlı rituallar bu görüşlərlə bağlıdır. Ümumiyyətlə, bütün Çərşənbələrdə Od aparıcı motivdir. Bu, Od amilinin Novruzun mahiyyətində durmasına ən gözəl sübutdur. Artıq bir neçə ildir ki, xalqımız öz ocağını BÜTÖV AZƏRBAYCANDA yandırır. Odumuz, alovumuz hər yana yayılır. Şuşamızın, Laçının və başqa məkanların uca dağlarında yandırılan odun alovu ürəyimizi isidir. Qoy hər zaman əzəli torpağımız üzərindən alovlanan qığılcımlar bizi yaşatsın. Varlığımızla torpağımıza isti şəfəqlər ələnsin. Od Çərşənbəniz MÜBARƏK!

**_Zümrüd BAYRAMOVA_**